# Təqdimat mərasimi

**İqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadə öz dəyərli kitabları ilə geniş oxucu kütləsinin dərin rəğbətini qazanmışdır. Bir alim, yazıçı kimi həmişə axtarışdadır, dəfələrlə müxtəlif ölkələrdə olub, görüb və müşahidə etdikləri hadisələr qəlbinin süzgəcindən keçib bir-birindən maraqlı əsərlərə çevrilir.**

Yazıçı, professor Əlibala Məhərrəmzadə "Xocalı soyqırımı", "İlham Əliyevin siyasi və iqtisadi strategiyası", "Azərbaycanda biznes planının tədqiqi nəzəriyyəsi", "Müqəddəsliyə aparan yol", "Bakı üçbucağı" romanı, "Mələyin təbəssümü" və digər əsərləri oxucuların stolüstü kitabına çevrilmişdir.

Yazıçının motivasiya mövzusunda olan —"Ev tapşırığı" kitabı ingilis, rus dillərində də nəşr olunmuşdur.

Bu günlərdə "Azərkitab" mərkəzində yazıçı Əlibala Məhərrəmzadənin nəşr edilmiş **"Çovdar çörəyi"** kitabının təqdimatı keçirildi. Təqdimat mərasimində alimlər, yazıçılar və kitabsevərlər iştirak edirdilər.

Tədbirdə ilk öncə kitabın redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Varis Yolçuyev çıxış edərək olduqca maraqlı süjet xəttinə malik olan, dramatizmlə dolu "Çovdar çörəyi" romanı haqqında dolğun məlumat verdi. Vurğuladı ki, bu roman avtomobil qəzasına düşərək həyatını itirmiş Cəlil adlı iyirmi dörd yaşlı gəncin ölüm səbəblərinin araşdırılmasından bəhs edir.

Əlibala Məhərrəmzadənin "Çovdar çörəyi" romanı dərin, psixoloji ovqatlı, kəskin, kontrastlı, orijinal obraz qaleriyasına, gözəl bədii dili olan lakonik romandır, daha doğrusu, bir nəfəsə oxunan sanballı əsərdir.



Romanın əvvəlində göstərilir ki, gərgin iş rejiminə malik məmur qəhrəman gündəlik həyatından oğurlanıb Türkiyənin Bodrum bölgəsinə gedir, amma tam dincələcəyi, stresi və yorğunluğunu atıb geri dönəcəyi istəyi gözündə qalır. İstirahətinin dördüncü günü Bakıdan zəng gəlir ki, böyük oğlun Cəlil anasına çovdar çörəyi almağa gedərkən avtomobil qəzasına düşərək dünyasını dəyişib. Təcili geri dönür və oğlunun ölümünün təfsilatını öyrəndikdən sonra bu bədbəxt hadisənin birbaşa və dolayı baiskarlarını axtarmağa başlayır. Bu axtarış gözlənilmədən atanın oğlu barədə ağlına belə sığışdırmadığı həqiqətləri öyrənməsinə gətirib çıxarır...

Əlibala Məhərrəmzadənin yuxusuz gecələri, dərin araşdırmaları ilə ərsəyə gətirdiyi "Bir nəfəsə oxunan roman" kateqoriyasına aid edilən "Çovdar çörəyi" romanı geniş oxucu kütləsinin hədsiz marağına səbəb olacaq, hər kəs bu kitabdan nəsə bir şey öyrənəcəkdir.

Roman atalar və oğullar arasında, ümumən valideynlərilə övladlar arasında yaranan uçurumun dərinliyini ölçməyə hesablanmışdır.

Yazıçı Əlibala Məhərrəmzadənin qələmə aldığı "Çovdar çörəyi" romanında ata faciəvi şəkildə dünyasını dəyişmiş oğlunun ölümündə müqəssir tapmağa çalışır. Və oğlu barədə dəhşətli həqiqətlərlə üz-üzə gəlir...

Təqdimat mərasimində Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzov, Energetika İnstitutunun direktoru Arif Həşimov, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi və başqaları çıxış etdilər.

Tədbirin sonunda kitabın müəllifi, professor Əlibala Məhərrəmzadə çıxış edərək yaradıcılığı ilə bağlı gələcək planlarından danışdı.

**Q.TƏYYAROĞLU,**
**"Respublika".**

18 noyabr.- 2018.- S.7.